


# XX əsrin faciəsi - Xocalı soyqırımı








# Xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb








## Rumınıya

Buxarestdə Azərbaycan səfirliyinin təşkilatçılığı ilə Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbirdə Rumınıyada fəaliyyət göstərən xarici ölkələrin səfirləri və akkreditə olunan diplomatik nümayəndəliklərin əməkdaşları, tarixçilər, siyasi-ictimai, elm və mədəniyyət xadimləri və Rumınıyada Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbiri giriş sözü ilə açan Azərbaycanın Rumınıyadakı səfiri Qüdsi Osmanov Xocalı soyqırımı barədə məlumat verib, hadisənin səbəb və nəticələrinə toxunub. O, Xocalı faciəsini bütün bəşəriyyətə qarşı törədilmiş cinayət adlandıraraq, Xocalı soyqırımın dünyada tanınması və Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan dövləti, o cümlədən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən fəaliyyət göstərən "Xocalıya ədalət!" kampaniyası barədə danışıb. Həmçinin səfir Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilən quruculuq-bərpa işləri barədə məlumat verib, regionda sülhün və stabilliyin bərqərar olması üçün Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizin əldə etdiyi uğurlara toxunub. Diplomat doğma evlərinə qayıdan sakinlərin regiona canlanma, həyat gətirdiyini, əmin-amanlıq içində yaşadıqlarını qeyd edib. Bundan əlavə, Qüdsi Osmanov Cənubi Qafqazda stabilliyin və sülhün mövcud olmasının bütün Avropanın, o cümlədən Rumınıyanın marağında olduğunu vurğulayıb.

Rumınıyada nəşr olunan "Geopolitika" jurnalının təsisçi direktoru və baş redaktoru, tanınmış jurnalist Vasili Simileanu qeyd edib ki, Xocalı faciəsinin dünyanın digər nöqtələrində təkrarlanmaması üçün beynəlxalq ictimaiyyət tərəfindən kəskin pislənməlidir. O, dəhşətli hadisəni bəşəriyyət üçün utanc adlandıraraq, soyqırımının törədilməsinə görə məsuliyyət daşıyanların cəzalandırılmasının vacibliyini vurğulayıb.

Sonra Xocalı soyqırımından bəhs edən videoçarx nümayiş olunub, tədbir iştirakçıları Xocalı soyqırımına həsr edilmiş sərgi ilə tanış olublar.

## ABŞ

Azərbaycanın ABŞ-dəki səfirliyi və Corc Vaşinqton Universitetinin Azərbaycanlı Tələbələr Assosiasiyasının birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbirdə ABŞ-nin yerli ictimaiyyəti və azərbaycanlı icmasının üzvləri, bu ölkədə təhsil alan xarici və azərbaycanlı tələbələr, o cümlədən ABŞ-də akkreditə olunmuş diplomatik nümayəndəliklərin üzvləri iştirak ediblər.

Anım tədbiri Xocalı soyqırımı qurbanlarının birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirin açılış nitqini edən Corc Vaşinqton Universitetinin Azərbaycanlı Tələbələr Assosiasiyasının prezidenti Humay Sadiq ailəsinin məcburi köçkün olduğu zaman yaşadığı çətinliklərdən danışıb. H.Sadiq Xocalı soyqırımı zamanı həyatını itirənlərə Allahdan rəhmət diləyərək, daha sülh və əmin-amanlıq dolu bir gələcəyə ümidini ifadə edib.

Azərbaycanın ABŞ-dəki səfiri Xəzər İbrahim Xocalı soyqırımı qurbanlarının etnik və dini mənsubiyyətlərinə görə həyatlarını itirdiklərini, bu faciənin Azərbaycan irsinin Qarabağ regionundan tamamilə silinməsi məqsədilə törədildiyini qeyd edib. Səfir Xocalı qurbanlarının əziz xatirəsinin yad edilməsinin hər kəsin borcu olduğunu, lakin bunun kifayət etməyini bildirərək, davamlı olaraq Xocalı soyqırımını inkar edənlərə müqavimət göstərməli olduğumuzu vurğulayıb. Səfir həmçinin Azərbaycanın tarixi ədaləti bərpa etdiyini, eləcə də öz torpaqlarını işğaldan azad etdiyini vurğulayıb.

Tədbirdə daha sonra Xocalı soyqırımı hadisələrindən bəhs edən məlumatlandırıcı videoçarx nümayiş edilib.

Daha sonra amerikalı kamança ustası, Amerikanın Muğam Cəmiyyətinin sədri Cefri Verbok Xocalı soyqırımının Azərbaycan tarixi üçün əhəmiyyətindən bəhs edib. Verbok Azərbaycanın Qarabağ regionunun artıq azad olduğunu, bunun ölkəmizin rəhbərliyi və Azərbaycan xalqı hesabına əldə edildiyini vurğulayıb.

Daha sonra Verbok kamança ilə Azərbaycan muğam sənətindən nümunələr ifa edib.

Tədbirin sonunda Xocalı soyqırımının qurbanları üçün ehsan verilib. Xocalı soyqırımına həsr olunmuş stenddə faciəyə dair ABŞ mediasında yer almış məlumatlar və hadisənin dəhşətli anlarını əks etdirən fotolar nümayiş olunub.

## Küveyt

Fevralın 24-də Azərbaycan Respublikasının Küveytdəki səfirliyində bu ölkədə yaşayan və təhsil alan Azərbaycan icmasının və Küveyt ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar anım tədbiri təşkil edilib.

Azərbaycanın Küveytdəki səfirliyindən xəbər verilir ki, tədbir Xocalı soyqırımının qurbanları, eləcə də canlarını Vətənin müdafiəsi və azadlığı uğrunda fəda edən bütün şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla anılması ilə başlanıb.

Tədbirdə çıxış edən səfir Emil Kərimov bildirib ki, "ötən əsrdə xalqımız dəfələrlə etnik təmizləmə siyasətinə məruz qalıb, tarixi torpaqları olan Ermənistandan qovulub, 20 Yanvar faciəsini, Qarabağ müharibəsini, Xocalı soyqırımını, eləcə də Ağdaban, Qaradağlı, Başlıbel, Bağanıs Ayrım kimi qətliamları və bir sıra digər faciələri yaşayıb və soyqırımı siyasətinin qurbanı olub. Xocalı soyqırımı vəhşilik dərəcəsinə görə dünya miqyasında ən dəhşətli faciələrdəndir və Holokost, Qolodomor, Xatın, Xirosima-Naqasaki, Sonqmi, Ruanda soyqırımları kimi insanlığa qarşı cinayətlərin fövqündə dayanır".

Xocalı soyqırımının qurbanları haqqında danışan səfir bu faciəyə ilk dəfə hüquqi-siyasi qiymətin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən verildiyini bildirib. O vurğulayıb ki, faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da rolu böyükdür və fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlayan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası soyqırımın tanıdılmasında xüsusi əhəmiyyətə malikdir.

Səfir çıxışının sonunda 44 günlük Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyevin çağırışı ilə ayağa qalxan igid oğullarımızın bədnam düşmənin işğalçılıq siyasətinə son qoyduqlarını və xalqımızın tarixinə parlaq Qələbə yazdıqlarını bildirib.

Anım mərasimində çıxış edən Azərbaycan-Küveyt "Vətənsevər" Dostluq Cəmiyyətinin sədri Könül Hacıyeva ermənilərin vəhşilikləri haqqında məlumat verərək, Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun və xalqının 44 günlük Vətən müharibəsində öz böyüklüyünü, qüdrətini və qəhrəmanlığını göstərdiyini bildirib.

Çıxışlar bitdikdən sonra tədbir iştirakçıları Xocalı soyqırımına həsr edilmiş "Məhv edilmiş şəhər" sənədli filminə baxıblar.

Tədbir keçirilən zalda ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən müxtəlif illərdə nəşr edilmiş kitab və jurnallar, bukletlər sərgilənib, eləcə də fotostend quraşdırılıb.

## Türkiyə

Türkiyənin İqdır şəhərindəki Heydər Əliyev adına liseydə Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimi keçirilib.

Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyası və Türkiyə-Azərbaycan Cəmiyyətinin İqdır şöbəsinin təşəbbüsü ilə keçirilən tədbirdə liseyin müəllim və şagirdləri, iki qardaş ölkə ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları Azərbaycanın Xocalı şəhərində erməni cəlladlarının qurbanı olmuş yüzlərlə dinc sakinin xatirəsini ehtiramla yad ediblər.

1992-ci ilin fevralında baş vermiş faciəli hadisələrdən bəhs edən videoçarx nümayiş etdirilib.

Mərasimi açan Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının sədr müavini, yazıçı Serdar Ünsal Azərbaycanın Qarabağ bölgəsində törədilən soyqırımı aktını unutmamağa çağırıb. O qeyd edib: "Təəssüf ki, dünya ictimaiyyəti bəşəriyyət tarixinin ən qaranlıq səhifələrindən birinə çevrilmiş Xocalıda baş verən qanlı hadisələrə bu günədək lazımi qiymət verməyib. Biz soyqırımında iştirak edənlərin hamısının məsuliyyətə cəlb olunmasını tələb edirik".

S.Ünsal Xocalı faciəsinin ermənilərin türklərə və azərbaycanlılara qarşı ilk cinayəti olmadığını xatırladıb. "1915-1920-ci illərdə ermənilər Anadoluda, o cümlədən İqdırda kütləvi cinayətlər törədiblər. Onlar təkcə bizim vilayətdə bir sıra kəndlərin, o cümlədən Hakmehmet, Oba və Gediklinin sakinlərini qətlə yetiriblər. İnsanlar diri-diri quyulara atılır, təndirlərdə yandırılırdı. 1915-1920-ci illərdə türkləri və azərbaycanlıları qətlə yetirənlərin nəvələri sonradan Xocalıda soyqırımını törədiblər", - deyə yazıçı xatırladıb.

Sonra çıxış edən Heydər Əliyev adına liseyin direktoru Yavuz Bağçı əmin edib ki, Türkiyə xalqı Xocalıda baş vermiş soyqırımını unutmayıb və unutmayacaq. O əlavə edib: "Ermənilərin türklərə və azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlər xüsusi qəddarlığı ilə seçilirdi. Hər bir ölkənin tarixində müharibələr olub. Ordular dinc insanlar, qadınlar və uşaqlarla deyil, qoşunlarla vuruşurdu. Silahsız mülki əhalinin qətliamı soyqırımı aktıdır. Ermənilərin qanlı cinayətləri və vandalizmi tarixə düşüb və heç vaxt unudulmamalıdır".

Tədbir çərçivəsində Xocalı soyqırımı mövzusunda ən yaxşı esse, rəsm və şeirlərin müəlliflərinə mükafatlar təqdim olunub.

Liseydə Xocalıda baş verən qanlı hadisələrin 33-cü ildönümü ilə bağlı fotostend də yaradılıb.

## Ukrayna

Ukraynanın Poltava şəhərində Azərbaycan Respublikasının Xarkov şəhərindəki fəxri konsulluğunun təşəbbüsü ilə Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı anım tədbiri keçirilib.

Tədbirdə fəxri konsul Əfqan Salmanov, Poltava Vilayət Şurasının sədr müavini Aleksey Çepurko, Poltava Vilayət Şurasının Mədəniyyət və Turizm Departamentinin şöbə müdiri Vladimir Sostin, şəhərin təhsil müəssisələrinin, diaspor təşkilatlarının, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbir dəhşətli faciənin görüntülərini əks etdirən tematik fotosərgi ilə başlayıb.

Fəxri konsul Əfqan Salmanov fotosərgi ilə tanışlıq zamanı erməni işğalçılarının cinayətlərindən danışıb. Qeyd edib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri SSRİ-nin 366-cı motoatıcı alayının dəstəyi ilə Azərbaycanın Xocalı şəhərinin dinc əhalisini kütləvi şəkildə qətlə yetirib, 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər həlak olub. Mindən çox insan yaralanıb, 1275 sakin əsir götürülüb, onların bir çoxunun taleyi naməlum olaraq qalır.

Tədbir iştirakçıları Xocalı faciəsi qurbanlarının, həlak olan Ukrayna vətəndaşlarının, gələcək uğrunda qəhrəmancasına canlarından keçmiş bütün əsgərlərin xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Fəxri konsul Əfqan Salmanov iştirakçılar qarşısında çıxış edərək deyib: "Əminəm ki, bu gün dünyada heç kim bu faciənin erməni cinayətkarları tərəfindən qədim zamanlardan bu torpaqlarda yaşayan insanlara qarşı planlaşdırılan soyqırımı aktı olmasına şübhə edə bilməz. Bu cinayətin məqsədi azərbaycanlıların ruhunu sındırmaq idi. Qorxu aşılamaq, özünəinam hissini məhv etmək üçün törədilmişdi. Amma, əksinə, bu hadisə Azərbaycanın haqq-ədalət uğrunda azadlıq mübarizəsini gücləndirdi".

Tədbirdə Aleksey Çepurko və Vladimir Sostin də çıxış ediblər.

Çıxışlardan sonra müasir tarixin ən qanlı səhifələrindən biri olan Xocalı soyqırımından bəhs edən sənədli film nümayiş etdirilib.

## Cənubi Afrika

Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasındakı (CAR) səfirliyində Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunan tədbir keçirilib və sərgi təşkil olunub.

Azərbaycanın CAR-dakı səfirliyindən bildirilib ki, tədbirdə əvvəlcə Xocalı faciəsi qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Anım mərasimində çıxış edən Azərbaycanın CAR-dakı müvəqqəti işlər vəkili Hüseyn Rəhimli erməni işğalçıları tərəfindən törədilən Xocalı soyqırımının bəşəriyyət tarixində qara ləkələrdən biri olduğunu iştirakçıların diqqətinə çatdıraraq, bununla erməni millətçilərinin öz vəhşi simalarını bir daha nümayiş etdirdiklərini, törədilən faciənin təkcə azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə yönəlmiş qanlı cinayət olduğunu dilə gətirib.

Xocalıya hücum zamanı çox sayda uşaq, qadın və qocanın erməni quldur dəstələri tərəfindən xüsusi amansızlıqla qətlə yetirildiyi barədə məlumat verən H.Rəhimli bu hadisələrin ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin nümunəsi olduğunu söyləyib.

"Xocalı soyqırımına ilk siyasi-hüquqi qiymət Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən verilib və 26 fevral tarixi Xocalı Soyqırımı Günü kimi elan olunub. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin apardığı nümunəvi daxili və xarici siyasət nəticəsində dünyanın bir çox ölkəsində Ermənistan işğalçı dövlət, Xocalı faciəsi isə soyqırımı kimi tanınıb. Bu gün Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, bu soyqırımına qiymət verilməsi istiqamətində davamlı səylər göstərilir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlayan "Xocalıya ədalət!" beynəlxalq informasiya və təbliğat kampaniyası bu istiqamətdə böyük uğur qazanıb. Bir çox dövlət və ya parlament Xocalıda baş verən qanlı cinayəti pisləyib və faciənin bütün bəşəriyyətə qarşı həyata keçirilən soyqırımı aktı olduğunu vurğulayıb. Əminik ki, insanlığa qarşı törədilmiş vəhşiliyin günahkarları gec-tez öz cəzalarını alacaqlar", - deyə o vurğulayıb.

Sonra tədbir iştirakçıları səfirlikdə Xocalı soyqırımına həsr edilən fotosərgi ilə, eyni zamanda ermənilərin törətdikləri vəhşilikləri əks etdirən materiallar və kitablarla tanış olublar.

## Moldova

Azərbaycanın Moldovadakı səfirliyinin təşkilatçılığı ilə Kişineuda Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş konfrans keçirilib.

Konfransdan əvvəl tədbir iştirakçıları ölkəmizin Moldovadakı səfirliyinin qarşısında ucaldılmış "Xocalı" barelyefi önünə gül dəstələri düzüblər.

Tədbirdə Moldova parlamentinin deputatları, ictimaiyyətin təmsilçiləri, diplomatik korpusun nümayəndələri, tarixçilər, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı, jurnalistlər, Moldovada yaşayan azərbaycanlılar iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları faciə qurbanlarının xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Konfransda çıxış edən Azərbaycanın Moldovadakı səfiri Ülvi Baxşəliyev Xocalı soyqırımının Azərbaycan xalqının XX əsrdə üzləşdiyi ən dəhşətli faciələrdən biri olduğunu qeyd edib. Qeyd edib ki, 200 il ərzində Azərbaycan xalqı dəfələrlə erməni şovinistləri tərəfindən etnik təmizləmə və soyqırımına məruz qalıb. Azərbaycanlılar Qərbi Azərbaycandakı tarixi torpaqlarından qovulub, qaçqın və məcburi köçkünə çevrilib və bütün bunlar ermənilərin törətdiyi kütləvi qırğınlarla müşayiət olunub.

"Bu qanlı hadisələrə münasibət bildirən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bildirib ki, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani repressiya üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi cinayətdir.

Səfir diqqətə çatdırıb ki, bu faciəyə görə məsuliyyət daşıyanların ifşası və müvafiq məlumatların dünya ictimaiyyətinə geniş şəkildə çatdırılması Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkənin xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib.

Diplomat diqqəti soyqırımı ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın xüsusi roluna çəkib. Ü.Baxşəliyev vurğulayıb ki, 2008-ci ildən başlayaraq onun təşəbbüsü və rəhbərlik etdiyi "Xocalıya ədalət!" beynəlxalq kampaniyası erməni millətçilərinin əsl simasını ifşa edir.

Moldova parlamentinin deputatı, Moldova-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Vitali Jakot Xocalıda baş vermiş faciəli hadisələrin Azərbaycan xalqı üçün ağır sınaq olduğunu qeyd edib. O əlavə edib: "1992-ci ilin həmin faciəli gecəsində 613 dinc sakin, o cümlədən uşaqlar, qadınlar və qocalar ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib. Biz baş verənləri aydın və barışmaz şəkildə soyqırımı kimi qiymətləndiririk. Bu faciə azərbaycanlıların qəlbində silinməz iz qoyub, xalqın ağrı və kədər rəmzinə çevrilib. Belə tədbirlərdə iştirakımız təkcə bizi birləşdirmir, həm də bütün Azərbaycan xalqı ilə həmrəy olduğumuzu nümayiş etdirir".

Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Bayramov çıxışında bildirib ki, Xocalı faciəsi Azərbaycan tarixinin qanlı səhifəsidir, günahsız insanlar sırf azərbaycanlı olduqları üçün öldürülüb. Natiq həmçinin bütün dünyada, o cümlədən Moldovada hər il "Xocalıya ədalət!" kampaniyasının keçirilməsinə dəstək verən Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın mühüm rolunu qeyd edib. Konqresin sədri erməni işğalından azad edilmiş rayonlarda, o cümlədən Xocalıda aparılan genişmiqyaslı quruculuq və bərpa işləri barədə də məlumat verib.

## Niderland

Niderland Krallığının Haaqa şəhərində Xocalı sakini, ailə üzvlərini Xocalı faciəsində itirmiş jurnalist, yazıçı-publisist Səriyyə Müslümqızının "Onlar heç zaman böyüməyəcəklər" (Ze werden nooit volwassen) və "Xocalıdan gələn var" (Geesten uit Khojaly) adlı kitablarının Niderland dilində təqdimatı olub.

Yazıçı Henri van Rens tərəfindən tərcümə olunmuş, o dəhşətli gecəni təsvir edən bu kitab iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Kitabın Niderland dilinə tərcümə olunmasının əsas səbəbi isə Beynəlxalq Ədalət Məhkəməsinin məhz Niderland Krallığında yerləşməsidir. Müəllif, 32 ildən sonra Xocalıya qayıdan Səriyyə Müslümqızı çıxışında bildirib ki, Niderland Xocalı soyqırımını törədənlərin cəzalandırılmasını təmin etməlidir. Uzun illər həsrətində olduğu Xocalıya yenidən həyatın qayıtmasından danışan Səriyyə Müslümqızı bundan sonra xalqımızın bir daha belə məşəqqətlər görməməsini arzulayıb.

Qeyd edək ki, Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı Niderland Krallığında anım mərasimi də keçirilib. Haaqa şəhərində Xocalı faciəsi qurbanlarının xatirəsini əbədiləşdirən abidə ziyarət olunub. Xocalı soyqırımı qurbanları, Vətən uğrunda şəhid olmuş qəhrəmanların xatirəsi birdəqiqəlik sükutla anılıb. Abidə önünə əklil və çiçəklər qoyulub.

*AZƏRTAC*